# İxrac potensialı yüksək olan sahələr inkişaf etdirilir

***Ölkə rəhbərinin ixracyönümlü məhsulların, o cümlədən baramaçılığın inkişafı ilə bağlı tapşırıqlarına əsasən keçən ildən Qəbələ rayonunda bu sahəyə diqqət və maraq ciddi surətdə artıb.***

2016-cı ildə ənənəvi sahələrdən olan barama istehsalına başlanılıb və 400 kiloqrama yaxın barama tədarük edilərək kiloqramı 8 manatdan qəbul məntəqələrinə təhvil verilib. Cari ildə barama istehsalını artırmaq məqsədilə yüz min ədəd tut tinginin əkilməsi planlaşdırılıb və artıq 25 min 800 ağac əkilib. Tinglərin 1500-ü Meşə Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən meşə fonduna aid torpaqlarda, 20 mini kümçülərin özlərinə məxsus pay torpaqlarında, 4,3 mini dövlət fondu torpaqlarında əkilib.

İxrac potensialı yüksək sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsinə dair dövlət başçısının tapşırıqlarının icrasını təmin etmək üçün də rayonda yeni fındıq bağlarının salınması istiqamətində iş aparılır. Bu məqsədlə bar verən 3480 hektar fındıq bağı nəzarətə götürülərək ağaclara mütəxəssislər tərəfindən aqrotexniki qulluq işlərinin göstərilməsi üçün qərargah yaradılıb. Artıq iki aya yaxındır ki, rayonun qəsəbə və kəndlərində əhali arasında maarifləndirmə işləri də aparılır. Elə bunun nəticəsidir ki, Nic və Bum qəsəbələrinin, Böyük Əmili, Mollaşıxalı, Solquca, Şəfili, Kiçik Əmili, Zalam, Çuxur Qəbələ, Topbağ, Həzrə, Mirzəbəyli, Tövlə, Yemişanlı, Bunud, Soltannuxa, Mıxlıqovaq, Tikanlı, Zərgərli və Daşca kəndlərinin sakinləri istifadə etdikləri, habelə bələdiyyə mülkiyyətində olan boş torpaq sahələrini kol-kosdan təmizləyərək fındıq tingləri əkirlər.



**"Qəbələ".**

# Maraqlı kitablar

Rayon mərkəzləşdirilmiş kitabxana sistemindən (MKS) redaksiyamıza verilən məlumata görə burada kitabların təbliği işinə xüsusi diqqət yetirilir. Bu məqsədlə müntəzəm olaraq oxucu konfransları, oxucuların yazarlarla görüşü, yeni kitabların sərgiləri və sair maraqlı tədbirlər keçirilir. Nəticədə 2016-cı ildə əvvəlki ilə nisbətən istər Qəbələ şəhərində, istərsə də kəndlərdə kitabxanalara müraciət edən oxucuların sayı xeyli artmışdır. Yeri gəlmişkən MKS oxucularının nəzərinə çatdırır ki, son vaxtlar kitabxanaların fonduna 15 addan çox maraqlı bədii, biblioqrafik və elmi kitab daxil olmuşdur.

**"Qəbələ".**

# Yeddi yaşın mübarək.



## Əzizimiz Nihat!

**7 yaşın münasibətilə səni təbrik edirik. Sənə həyatda can sağlığı, xoşbəxt olmağı, bol-bol sevinc, valideynlərinin və vətənin başını həmişə ucaltmağı arzulayırıq.**

***Baban Yasər, nənələrin Nəhayət, Ülkər, atan Rüstəm, anan Xəyalə və yaxınların.***


# Hörmətli oxucular!

## *"Qəbələ" qəzetinin reklam xidməti sizinlədir*

Siz cüzi müqavilə qiymətləri ilə böyük tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrinə yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

«Qəbələ»nin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini və əlamətdar günlərini təbrik etmək Sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamları və elanları dərc etməklə də qəzet Sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: (050) 671 06 94.
**Elektron ünvanımız:** gabalanews@mail.ru



*Əl işdən soyumaz, ürək arzudan...*

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti 1933-cü ildən nəşr olunur

# qəzetinə

## *2017-ci il üçün abunə yazılışı davam edir.*

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Uludaş kənd sakini **Mikayılova Hürü Feyzulla qızına** verilmiitş JN seriyalı 302 F nömrəli (kod 40615038) **Torpağın mülkiyyət hüququna dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **İbrahimova Xədicə Abdüləziz qızına** verilmiitş JN seriyalı 1553 F nömrəli (kod 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Surxayeva Məhluqə Süleyman qızına** verilmiitş JN seriyalı 501 F nömrəli (kod 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam kənd (qəsəbə) sakini **Səfərova Yasəmən Seyfəddin qızına** verilmiş JN seriyalı 1647 A nömrəli (kod 40600048) **Torpağın mülkiyyət hüququna dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** dayısı

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi iş yoldaşları **Hikmət Məmmədova** atası

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

"Qəbələ" qəzeti redaksiyasının kollektivi rayon icra hakimiyyəti başçısının birinci müavini **Abil Ağasəfova** dayısı

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

"Qəbələ" qəzeti redaksiyasının kollektivi rayon icra hakimiyyətinin işçisi **Hikmət Məmmədova** atası

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

"Qəbələ" qəzetinin kollektivi iş yoldaşları **Qüdrət Səmədova** yaxın qohumu

**RÖVŞƏN MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Fəqan Mehdiyevə** atası

**ATABƏY MEHDİYEVİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzeti redaksiyasının kollektivi Mamaylı kənd inzibati ərazi nümayəndəsi **Nəriman Məmmədova** yaxın qohumu

**FƏXRƏDDİN ƏZƏMMƏDOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Bunud kənd tam orta məktəbin kollektivi iş yodaşları

**ALLAHVERDİ İSMAYILOVUN**

vaxtsız vəfatı ilə əlaqədar mərhumun yaxınlarına kədrləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


*Redaktor*
*Varis Yaqubov*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Növbətçi redaktor Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.